**GÜLAYƏ RZAYEVA**

# Vətən dərsi

**Bakı-2024**

***Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə hazırlanmışdır***

Tərtibçi: **Gülayə Rzayeva**
*Layihə rəhbəri, QHXF-nun rəhbəri*

Məsləhətçi: **Aydın Xan Əbilov**
*Yazıçı-kulturoloq*

Redaktor: **Sərvaz Hüseynoğlu**
*"Ədəbiyyat qəzeti"nin şöbə redaktou*

**"Vətəndir".** Bakı-2024, "Bayramoğlu" nəşriyyatı, 60 səh.

*Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkişlatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyələşdirdiyi, "Qayğı və Himayə" Xeyriyyə Fondu tərəfindən həyata keçirilən "Vətənpərvərlik tərbiyyəsinin inkişafi" layihəsi çərçivəsində nəşr olunmuşdur. Kitabın məzmununda əks olunan fikir və mülahizələr müəllifə aiddir və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin rəsmi mövqeyini əks etdirmir.*

*Topluda tanınmış şair və yazıçıların vətənpərvərlik mövzusunda qələmə aldıqları poeziya nümunələri daxil edilmişdir.*

B G 9952636712 / 50-2024

© "Qayğı və Himayə" Xeyriyyə Fondu, 2024
© Gülayə Rzayeva, 2024

**Azərbaycan Respublikasının
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Agentliyi**

# "VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN İNKİŞAFI" LAYİHƏSİ

**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin 2024-cü il kiçik qrant müsabiqəsi" çərçivəsində maliyyə dəstəyi verdiyi "Vətənpərvərlik tərbiyəsinin inkişafı" ikiaylıq layihəsi "Qayğı və Himayə" Xeyriyyə Fondu tərəfindən 1 may 2024-cü il tarixindən etibarən həyata keçirilməyə başlanılıb.**

Bu layihə çərçivəsində bir neçə fəaliyyət istiqamətində işlər görülüb ki, onların da əsas məqsədi vətənpərvərliyin yeni nəsil arasında təbliği, Qarabağ Zəfərinin yaradıcı şəxslərin ədəbi-bədii nümunələri formasında ideoloji-mədəni sərvətə çevrilməsini özündə birləşdirirdi.

Məlumdur ki, gənclər hər zaman fərqliliyi, modernliyi sevir, Qarabağda qazanılan Qələbə də gənclərimizin formalaşmasında xüsusi təsiri var. Vətən müharibəsinində qazanılan Böyük Zəfərdən bizi illər ayırdıqca, yeni nəsilin əsl vətəndaş kimi formalaşmasında Qarabağdakı  mübarizəmizin, qanlar və canlar hesabına qazanılan Qələbə, eləcə də antiterror əməliyyatındakı hərb sənətinin uğurlarını - enerjisini Azərbaycanın inkişafına yönəltmək üçün yeniyetmə və gənclərin yeni trendinə mevirmək vacibdir.

Layihə çərçivəsində nəşrə hazırlan "Vətən dərsi" ədəbi-bədii, poetik toplu və onun elektron formasında gənclərə motivasiya verilməsinə xidmət edir. İctimai-humanitar fikrimizdə yeni trend vətəndar - vətəni sevmək, lazımi məqamda Azərbaycan üçün canından keçmək, dünyanın harasından yaşamasından asılı olmayaraq, ölkəmizin, xalqımızın inkişafına, Qarabağın dirçəlməsinə yardımçı olacaq yeni nəslin mənəvi-əxlaqi, intellektual-kreativ yetişməsinə, gənclərin mənəvi cəhətdən inkişafı üçün şair və yazıçıların yaratmış olduqları vətənpərvərlik əsərlərinin xüsusi rolu vardır. Vətənpərvərlik mövzusunda ədəbi-poetik əsərlər vasitəsilə yeni nəsil oxuculara müsbət dəyərlər aşılanması nəzərdə tutulub.

Layihə çərçivəsində əsas fəaliyyətlər paytaxt Bakıda həyata keçirilsə də, kitab üçün materiallar toplamaq üçün müxtəlif bölgələrə səfərlər edilib. İnternet - sosial şəbəkələr vasitəsilə respublikamızda və soydaşlarımız yaşayan ölkələrdə yaşayan 55-60 milyonluq soydaşlarımızın yaşadığı məkanları əhatə edilməsi nəzərdə tutulub. Eyni zamanda kitab üçün materiallar hazırlanan zamanı gənc nəslin qəbul etdiyi modern, qısahəcmli və tez yaddaqalan ədəbi nümunələrə, poetik məhsullara xüsusi diqqət ayrılıb.

Ənənəvi - ədəbiyyat və yeni sənət formaları özündə birləşdirməklə məktəblilər, yeniyetmələr, gənclər və tələbələr, eləcə də diaspor gəncləri arasında hərbi-vətənpərvərliyi gücləndirməyi, yeni texnoloji-estetik formaları populyarlaşdırılmasını nəzərdə tutan kitabın nəşrinə, eləcə də reallaşdırılan layihəyə verdiyi dəyərə görə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə xüsusi minnətdarlığımızı bildiririk.

**"Qayğı və Himayə" Xeyriyyə Fondu**

*Şəhidlərimizin əziz xatirəsinə*

**Qanımla yazmışam öz kimliyimi,**
**Bu eşqin, bu andın, öz adıyam mən.**
**Canımda, qanımda Vətən sevgisi,**
**Böyük sevgilərin övladıyam mən.**

*Gülayə*

## BOYNUMDA ƏBƏDİ HAQQIN VAR, VƏTƏN

Bir vəfa borcum var uca adlara,
Yazaram dağına, daşına sənin.
Kim ki, ürəyini yaxıb odlara,
Kim ki, dolanıbdır başına sənin...
Kimin cismi, canı, sənlə ruhu tən,
Boynumda əbədi
haqqı var, Vətən!

Bu sevda yolunda kim yana-yana,
Boğubdur köksündə hisran yasını?!
Yaxıb əli ilə telinə həna,
Sənə qurban deyib öz balasını...
Kim ki, mənliyində doğurubdur mən,
Boynumda əbədi
haqqı var, Vətən!

Min ildir sananır yaşı göylərdə,
Sənə keşik çəkir hər səhər-axşam.
Ayağı torpaqda, başı göylərdə,
Kim ki, gümanımda yandırıbdı şam,
Səpilib torpağa cücərib dən-dən,
Boynumda əbədi
haqqı var, Vətən!

Kim ki, səni sevdi sənə yar oldu,
Kim səni anladı, kim səni andı.
Kimin ki, amalı etibar oldu,
Var kimin qəlbində sədaqət andı, -
Boynumda əbədi
haqqı var, Vətən!

Haqqın zirvəsində durub haqq kimi,
Adı tarixlərdə dağ qalanların...
Durub başım üstə çil-çıraq kimi,
Ümidi sabaha sağ qalanların,
Boynumda əbədi
haqqı var, Vətən!

Uğrunda hər kimin qanı tökülüb,
Bir damla göz yaşı axıbsa belə...
Dikəlib son kərə dar ağacından,
Kim sənə "can" deyə baxıbsa belə,
Boynumda əbədi
haqqı var, Vətən!

Gələn baharından, qışından belə,
Yalçın zirvələrin qaşından belə,
Döyüş meydanında sipərə dönüb,
Səngərə çevrilən daşından belə -
Boynumda əbədi
haqqı var, Vətən!

Uca zirvələrə al bayraq kimi,
Səni qələbəylə sancmaq həvəsi...
Səni deyə-deyə susmayıb bir an,
Yayılıb aləmə kimin haqq səsi,
Boynumda əbədi
haqqı var, Vətən!

Ağır sınaqlardan çıxıb zəfərlər,
Kim sənin yolunda can versə azdı.
Kim ki, Vətən deyib sənə hünərlə,
Adını əbədi tarixə yazdı...
Kimin ki, varlığı, hər bir carı sən,
Boynumda əbədi
haqqı var, Vətən!

*Şəhidlərimizin əziz xatirəsinə*

## VƏTƏNƏ BAĞIŞLADIN

Ümidimdə doğuldun, gümanımda boy atdın,
Vətən, boyuna qurban bu canımda can dedin.
Boyuna qurban olum, boyu vətən şəhidim,
Vətən boyda boyunu vətənə qurban dedin.

Səngər-səngər boy atdın, havasından asıldın,
Yaşadın sevincini, həm yasından asıldın.
Sərhəddinə hörüldün, səmasından asıldın,
Sarıdın yaran ilə yarasını vətənin.

Köksünü sipər etdin güllələnən torpaqda,
Ümidimdə ümidi itən gülü bitirdin.
Güllələnib, gül üzünə gül ələnən torpaqda,
Sən öz şəhid qanınla vətən gülü bitirdin.

Torpaq qırmızı geydi çiçəklədi qan yeri,
Bu şanlı tarixini göydə yazdı gözlərim.
Gözlərimdə söküldü gözlədim mən dan yeri-
Götürüb məzarını göydə qazdı gözlərim.

Dərdimin dəryasında gecələdi gecələr,
Dünyamın dünyasında gecələdi gecələr,
Gözümün aynasında geceledi gecələr,
Açılan sabahları mən yarana bağladım.

Bu dünyaya sığmayan sevincini, sevgini
Ürəyində sevinci bitənə bağışladın.
Köynəyindən keçirdi vətən səni əbədi-
Sən əbədi ömrünü vətənə bağışladın.

## ÖMRÜ VƏTƏN OLANLARA

Bağışla, dilimə gec gətirmişəm
İllərlə qəlbimdə yazdığım şeiri.
Uzun gecələri gözümdən asıb,
Hər səhər yuxusun yozduğum şeiri.

Mən sənə sevgimi xonça bağladım,
Qollarım yetmədi boyunu quca.
Boyuna yetəsi boyum yox mənim,
O qədər böyüksən, o qədər uca.

Adın çəkildikcə adlar içində,
Bir tarix boylandı hər ucalıqdan.
Hər nə var yalandı səndən o yana,
Ucalıq görmədim sən ucalıqda.

Adına güvəndim mən ömür boyu,
Sən varsan daha nə qəm demişəm.
Mənim gözlərimdə Tanrılaşıbsan,
Sənə hər dinəndə qibləm demişəm.

Sən mənim əzəldən ölümsüz ömrüm,
Ölümsüz yaşısan körpəliyimin.
Mənim könül evim, mənim can evim,
Nağıl yaddaşısan körpəliyimin.

Sən atəş nağılım, sən su nağılım,
Hər rəngdən bir çələng toxudun mənə.
Hansı əfsanəni, hansı nağılı,
Mən hansı nəğməni oxuyum sənə?

Rəsmini çəkim, de, hansı qayanın?
Mən hansı otaqdan asım rəsmini?
De, hansı zirvədən, de,hansı dağdan,
De, hansı budaqdan asım rəsmini?

Mən hansı havaya oynayım denən,
Oduna qalanmaq havasındayam.
Alışmaq öyrəndim pərvanələrdən,
Başına dolanmaq havasındayam.

Bilmirəm hansını öpüm, oxşayım,
Bu çiçəkli dərə, o çiçəkli dağ.
Mübarək əlinlə özün tutmusan,
Şəhid köynəyini gözümə çıraq.

Durum səcdəsinə bir ömür boyu
Sənə ana deyə dil açanların.
Yatdığı torpağın üzündən öpüm
Qanı qayalarda gül açanların.

Vətən deyə-deyə, yurd deyə- deyə,
Qayana, daşına dolananların;
Başına dolana bilsəydim keşkə,
Mən sənin başına dolananların.

Başına dolandım misra -misra mən,
Səni çiçək-çiçək könlümə əkdim.
Mən sənə heç zaman şeir yazmadım,
Mən sənə sevgimin rəsmini çəkdim!

Mənim qiblə bilib,üz tutduğum sən,
Yolu səndən keçdi haqqın, düzlüyün.
Ən böyük sevgilər səndən başladı,
Adını sən qoydun ölümsüzlüyün.

Geydin öpə-öpə əyninə, geydin
Qönçə çiçəklərin tər libasını.
Sənin köynəyində oxudum hər an,
Ölümsüz bir eşqin əlifbasını.

Min rəngə boyanır eşqin tablosu,
Baxdıqca rəsminə ötən anların.
Boyuna boylanır əsrlər, illər,
Tarixlər ölümsüz qəhrəmanların.

Gerçək yuxuların sən hünər səsi,
Səngərdə, səmada, sərhəddəsən sən.
Ayağın torpaqda, başın ğöylərdə,
Hər anda Allahla vəhdətdəsən sən.

Sınandın tarixin sərt sınağında,
Məğrur baxışların göylərə dəydi.
Hər balan bir bayraq havası çaldı,
Hər qayan bir şəhid libası geydi.

Göstərdi dünyaya öz kimliyini
Kök atıb köksündə bitən oğullar.
Qanıyla ölümsüz nəğmələr yazdı
Soyu vətən, boyu vətən oğullar.

Gözlərin görməsin nə dərd, nə bəla,
Qıymaram qəm odu qəlbinə dəysin.
Atdım yaylığımı ayaqlarına,
Sənə gələn bəla qoy mənə gəlsin.

***

Ölmür sevənlərin ümid işığı,
Hər ümiddə neçə sabah yaşayır.
Hər duyan ürəkdə bir yurd sevgisi,
Hər sevən könüldə bir haqq yaşayır.

Ölmür səndən ötrü ölmək istəyi,
Bu eşqin harayı- hayı bilinmir.
Bir ömür saymışam, sayıram hələ,
Səni sevənlərin sayı bilinmir.

Qanı işıq saçdı ölümsüzlüyün,
Yardı qaranlığı gün-gündüz oldu.
Öldürdü ölümü sevgilər belə,
Həqiqi sevgilər ölümsüz oldu.

Sənə bu sevginin sərhəddi yoxdu,
Bax, yarı yerdəyik, göydəyik yarı.
Köksün altında biz yaşayırıq,
Başının üstündə şəhid ruhları.

***

Mənim doğma elim, doğma yurd -yuvam,
De, nədən danışım, deyim nələri?
Dinsin gəncliyimin uşaqlığımın,
Acılı-şirinli xatirələri.

Getmir gözlərimin önündən bir an,
Çovğunlu, Tufanlı,çənli illərim.
Baharın bir özgə, qışın bir özgə,
Bir özgə olardı sənli günlərim.

Düşsə də yollarım səndən uzağa,
Mənə verdiyin can canımda qalıb.
Məni ayaqlarım alıb getsə də
Ürəyim hər zaman yanında qalıb.

Sıxıb ürəyimə bu yurd sevgimi,
Keçilməz dağları kaş yara bilsəm.
Bir ömür bilərdim hər bir anı mən,
Bir anın borcunu qaytara bilsəm.

Titrədim, uçundum sənin havana,
Həvəsim demirəm, nəfəsim oldun.
Hər zaman sən mənim yaşam səbəbim,
Mənim haqq deyəndə haqq səsim oldun.

Səndən nə oxusam, səndən nə yazsam,
Səndən nə söyləsəm yenə də azdır.
Bir ömür nədir ki, sənin yolunda,
Bir anda min kərə ölsəmdə azdır!

## GƏLİR

Bu arzuyla yaşadım mən bir ömrü əzəldən,
Gözlərimin özünə gözlədiyim an gəlir.

Al bəzənib, al geyib Şəhidlər Xiyabanı,
Gözlərin aydın, Vətən, bir köynəyi qan gəlir.

Dayanıb haqq yolunda, geyib şəhid libasını,
Allah qəbul eyləsin, boyuna qurban gəlir.

Bayraq eşqi səmada dalğalanır dəmadəm,
Bu sevgili torpağa sevgili bir can gəlir.

Sökülür göy üzündən qaranlıqdır, Gülayə,
İndi də göy üzünə gül üzlü bir dan gəlir.

***

## BOYUN BAŞDAN-BAŞA VƏTƏN BOYDADIR

Boyunu ölçərdin hər axşam-səhər,
Bildiyim bir sirri gizlədərdin sən.
Məni sevdiyini deyə bilməzdin,
Boyun uzanmağı gözləyərdin sən.

Axı, kim bilərdi, necə bilərdi,
Sənin oyuncağın od daşı imiş.
Ayağın altına qoyduğun o daş
Bi eşqin ölümsüz yaddaşı imiş.

İnsanın taleyi bağlı boxçadır,
Heç kimin qisməti-payı bilinmir.
Təkcə mən sevərdim səni o zaman,
İndi sevələrin sayı bilinmir.

İndi sənin boyun hamıdan uca,
Səni əzəl gündən könlüm düz andı.
İllərlə daş yığdım ayağım altda,
Boyuna baxmaqdan boyun uzandı.

Eşqin məşəl oldu, köynəyin bayraq,
Yol açdın əbədi ölümsüzlüyə.
Ayağın toraqda, başın göylərdə,
Qovuşdun, sevdiyim, ölçüsüzlüyə.

Bir göz qırpımında dəyişdi zaman,
Tanıdı adını, soyunu sənin.
Boyun başda-başa vətən boydadır;
İndir necə ölçüm boyunu sənin?

***Şahin Fazil***
*Tarix elmləri doktoru, professor*

Qəlbimdə Vətən sevgisi çox yerləri gəzim
Tay başqa Vətən görmədim, olmaz Vətənimdən.

Şahanə ucalmış göyə dağlar şahı Şahdağ,
Boylanmadadır gör necə Qafqaz Vətənimdən.

Az başqa məkan görmüşəm hər fəsli gül olsun,
Əskikmi olur gülləri qış-yaz Vətənimdən?

Odlar diyarım - söz diyarım, saz diyarımdır,
Dünyaya aya açmadımı saz Vətənimdən?

Məmməd, Nəbi, Mehdi... nə qədər qəhrəmanım var...
Çıxmış neçə qartal, neçə şahbaz Vətənimdən.

Canana dedim: Şeirdə baş mövzu nə olsun?
Canan dedi: -Şahin, həmişə yaz Vətənimdən.

***

"Edəmən tərk, Füzuli, səri-kuyin yarın,
Vətənimdir, vətənimdir, vətənimdir, vətənim".

Dünya evi təkdir, mənə dünya vətənimdir,
Dünyadakı hər dağ, meşə, dərya vətənimdir.

Mərrix ilə Zöhrə Və Zühəl kainatındır,
Ya söyləyə billəmmi Sürəyya vətənimdir?

Leyla, məni əfv eylə ki, səhralərə düşsəm,
Məcnunlaşa bilsəm mənə səhra vətənimdir.

Mizralərə çox istilahın yoxması xasdır,
Mizradə "vətən" var isə misra vətənimdir.

Göylərdə xəyal pərvaz edən vaxt coşuram mən,
İlhamıma hər ləhzə təcəlla vətənimdir.

Laqeyd vətənə xeyli adam var, niyə laqeyd?
Yer mərmilənir çox kərə, heyfa, vətənimdir.

Gah zəlzələ, gah vəlvələ, gah Yerdə qasırğa,
Hərdən bizi incitsə də, amma, vətənimdir.

Sən Yerdə deyil, cənnəti göylərdə gəzirsən,
Cənnət mənə göylərdəmi, molla, vətənimdir.

Yer kürəsi tənhadır, əgə caiz olarsa,
Bir qum dənəsi Şahinə hətta vətənimdir.

***

***Yasin Xəlil***

Mənə təsnifi-Xudayar oxuyarsan zildən,
Səs o səndə nə qədər var, oxuyarsan zildən.

Mənə bir Niyyəti* niyyət eləyərsən Göydən,
Kimi gördünsə çəkib car oxuyarsan zildən.

Mənə bax, dərdini bəmdən oxuma heç vaxtı,
Arada var hələ də kar, oxuyarsan zildən.

Oxu avaz ilə duanı eşitsin hər kəs,
Eşidən olmasa, təkrar oxuyarsan zildən.

Üzüləndə əlin hər yerdən ümidsiz, Yasin,
Yar aman, yar - deyib, var, oxuyarsan zildən.

---

*Niyyət-ikinci Qarabağ müharibəsində qəhrəmancasına həlak olmuş

## VƏTƏN ƏSGƏRİ

Yurda göz dikənin dərsini verdin,
Yolunu azanlar qorxdu gücündən.
Vətənə qanım da halaldı, dedin...
Məğrurluq boylandı igid içindən -
Ey Vətən əsgəri, Vətən əsgəri!
Qəzəbin daş dələr gərilsə yay tək,
Bir heçdi gözündə min hədə, qorxu.
Gündüzlər Gün kimi, gecələr Ay tək
heç zaman gözünü tutmasın yuxu,
Ey Vətən əsgəri, Vətən əsgəri!
Qoru azad eldə azad gün görən
bu yurdun oğlunu, qızını qoru!
Halal süfrəmizə Allah göndərən
halalca tikəni, ruzunu qoru,
Ey Vətən əsgəri, Vətən əsgəri!
Qoru sərhədləri, yolu, körpünü -
necə ki, əkinci dəni qoruyar.
Qorusan beşikdə yatan körpəni
bil, Ulu Tanrı da səni qoruyar...
Ey Vətən əsgəri, Vətən əsgəri!
Şərəf timsalıdı hünərli paqon,
şərəf qoruyandı əsgər deməli;
Çiynində alışan o zərli paqon
ölkəmin müqəddəs əlidir, əli -
Ey Vətən əsgəri, Vətən əsgəri!

Kim yolun azarsa, düşünsün dərin,
ləkə sala bilməz növrağımıza!
Silahın sinəndə; köksünü gərib
sən ki, and içmisən bayrağımıza,
Ey Vətən əsgəri, Vətən əsgəri!
Geriyə addım da çəkilmək olmaz
düşmən qabağında, satqın önündə.
Heç zaman, heç yerdə əyilmə, yalnız
diz çök ədalətin, haqqın önündə -
Ey Vətən əsgəri, Vətən əsgəri!..

## ŞAİRİN SÜBH DUASI

Sübhdən salavat deyib, durdum ilhama gəlib,
Saatı qələbəyə qurdum, ilhama gəlib!
Sözü seçdim dən kimi, qələmi köhlən kimi,
çapdım Qarabağ boyu, yordum, ilhama gəlib!
Otuz il firqət, ilhaq - meydan suladı nahaq...
Haçan tutar yerin haqq? - sordum, ilhama gəlib!
Vaxt itirdik gör kimə, yağı bəndmiş bir himə;
Yenilməz tariximə vardım, ilhama gəlib!
Ağdamı, Kəlbəcəri, Laçını, Xocalını
Ürəyimin içində gördüm, ilhama gəlib!
Qollarımı doladım Füzulinin boynuna,
Zəngilan, Cəbrayılı sardım, ilhama gəlib!
Qanadlanıb Şuşaya, o müqəddəs guşəyə,
Şehli Xarı-bülbülü dərdim, ilhama gəlib!
Şəhid türbələrinə təravət vermək üçün
Pəmbə-pəmbə gül açdı dərdim, ilhama gəlib!

Ali Baş Komandanın adınadı ilhamım
İlhamım əmr eləyib, ordum ilhama gəlib!
Qarabağ-Azərbaycan!.. hayqırır bir ağızdan
Qələbəyə şığıyır yurdum, ilhama gəlib!

,

## QARABAĞ

Var düzün, qəldi dağın, həm də ki, bağın, Qarabağ!
Cənnətin ortasına taydı qırağın, Qarabağ!
Hər can altında muğam sirri yatıbdır, bilirik -
Gövhərin məskənisən, dürdü dodağın, Qarabağ!
İzin Allahdan olub, qan atadan, can anadan;
Nazlı köksündə dəyib ərzə ayağım, Qarabağ!
Arazın lilli suyu kölgə salıb ağ üzümə,
O səbəbdən də solub lalə yanağım, Qarabağ!
Yol tutub geydi çarıq, körpə canım düşdü iraq
Anasan bağrıyanıq, itmiş uşağın... Qarabağ!
Şəksiz, olmaz qarabaxt, tanrı quran cilvəli taxt,
Qaynar əlbəttə yenə çeşmə bulağın, Qarabağ!
Ulu Zərdüşt qalayıb dağlara tay tonqalını,
Yel əsib qopsa tufan, sönməz ocağın, Qarabağ!
Sancılar bəd nəzərə, kafəri al qan eləyər,
Şər dili dibdən üzər şanlı bıçağın, Qarabağ!
Vaqifin bağrı sənə bağlıdı min bağlar ilə -
Qocaman bir xalısan, mən də saçağın, Qarabağ!

## GÜLSÜM GÜLMEZ

### AZƏRBAYCAN ORDUSU

*(44 günün sonunda alınan zafer kutlamalarının olduğu gün yazdığım şiirim )*

Dillerinde dualar, göğüslerinde iman
Koşa koşa gittiler, savaştılar yılmadan
Dönmediler geriye, düşmanları yenmeden
Üç renkli bayrağımı, Karabağ'a dikmeden…

Öyle bir yazdınız ki, Tarihe büyük destan
Gümbür gümbür sesimiz, düşmana korku salan
Arş-ı ?l?ya yükseliyor, Bakü sokaklarından
Bu gün güneş gülüyor, gülüyor Azerbaycan…

Varsa eğer bilmeyen, kardeşlik ne demektir
Bakıp da öğrensinler, cana can emanettir
Beraberce gülüp, beraber kederlenmek
Beraberce savaşıp, beraberce ölmektir…

Şimdi Zafer senin, Bayram senin en kutlu
Hem de düğün tadında, kutlanacak coşkulu
Yoldaş olmaya geldik, gururluyuz doğrusu
Ey kahraman, Ey aziz, Azerbaycan Ordusu!…

## ŞƏHİD ANASI
***( Şəhid Anar Sərxan oğlunun anasına.)***

Hər səhər evindən həyətə çıxar,
Anarın gəldiyi yollara baxar.
O,gözəl şəklini bağrına basar.
Qarabağımızın gözəl sonası.
Şəhid Anarımın dərdli anası.

Bu yolda Anarın  daha görünməz...
Vətənin şəhidi,geriyə dönməz.
Onlar bayraqdılar,ucalan enməz!
Ömürkük həsrəti canda qalası.
Şəhid Anarımın ağlar anası.

Yatar ki,yuxuda görə balasın,
Boyununa sarılıb,ala qadasın.
Öpərək bağlaya,onun yarasın.
Göylərə ucalır ahı- duası,
Şəhid Anarımın mələk anası.

Hər əsgər görəndə,sevinib- gülər,
Gözünün yaşını,bir anda silər.
Bütün əsgərləri,doğması bilər.
Deyir pozulmasın əsgər sırası.
Şəhid anarımın gözəl anası.

Zəfər qazananlar,cənnətlik olsun,
Oğullar Vətənə qoy oğul olsun.
Oğlum şəhid olub,Vətən sağ olsun.
Məzarı önündə olar duası,
Şəhid Anarımın mələk anası.

## ŞƏHİDİN ÖZ ATASINA SON SÖZÜ

Ağlama, ağlama, atam, əzizim,
Kişilər hönkürüb, ağlamaz axı.
Allah hüzuruna gedirəm özüm,
Ağlasan, yanında saxlamaz axı.

Şəhid atasısan, fəxr eylə daha,
"İgid ol, cəsur ol!"- sən demədinmi?
Səni tapşırmışam, dedin, Allaha,
Allah sənlə olsun, söyləmədinmi?

Vətən məhəbbəti, el məhəbbəti,
Demişdin, hər şeydən üstündür, üstün!
Mənim əvəzimdə olsaydın, qəti,
Sən də can verərdin bu Vətən üçün!

Yapış nəvələrin ta əllərindən,
Axan göz yaşını, sən Allah, gizlə!
Öpürəm ağlayan o gözlərindən,
Sən də nəvələri öpüb, əzizlə!

## VƏTƏN BÖLÜNMƏZ

***Bu şeri torpaqlarımızın azadlığı uğrunda canını fəda etmiş, əziz və cənnət ətirli şəhidlərimizin, əziz ruhuna itihaf edirəm)***

Haydı igidərim, haydı irəli !
Qoyulur Turanın xımı, təməli.
Döyüş qabaqdadır hələ, deməli.
Azadlıq günəşi, üfüqdə sönməz,
Bu vətən bölünməz, Şəhidlər ölməz.

Möhkəm ol, zirvənə kimsə kəm baxa,
Cəsarət eyləyə bayrağın, taxa.
Məlhəm qoy yarama, qoyma qan axa,
Bilirəm çox sərtsən, qəddin əyilməz.
Bu vətən bölünməz, Şəhidlər ölməz.

Başını dik saxla şəhid anası,
Alınır hər dağın, daşın qisası.
Müxtəsər deyirəm sözün, qısası.
Əməlin, əməyin izi, silinməz.
Bu vətən bölünməz, Şəhidlər ölməz.

Hər kəs bu dünyadan köçüb, gedəcək.
Biri gül becərib, qanqal dərəcək.
Kimsədə bağ salıb, barın görəcək.
Haram könüllərdən meyvə, dərilməz.
Bu vətən bölünməz, Şəhidlər ölməz.

Hər oğul bu yola, tablayıb dözməz.
Bayrağa sarılıb dik dura, bilməz.
Şəhid köynəyini çıxarıb, geyməz.
Bunu yanan görər, yanmayan görməz.
Bu vətən bölünməz, Şəhidlər ölməz,

Ey Namiq uca tut, Şəhid adını,
Bacar bu şərbətin, çıxar dadını.
Tanı yaxınını, tanı yadını.
Mərd oğul danışıb dinib, öyünməz.
Bu vətən bölünməz,  Şəhidlər ölməz.

## ŞƏHİDLƏR SORAĞI

Yenə də, şəhidlər sorağı gəlir,
Ana fəryadları - qəlbləri dəlir.
Sitəmlər, acılar - göyə yüksəlir,
Bu ahu-naləyə mələklər yanır.

Analar bir anda qocalır, solur,
Övlad məzarında başını yolur.
Ürəklər qubarla, nisgillə dolur,
Neçə ümüd sönür, həyat dayanır..

Balası köksünə sıxır rəsmini,
Sevdiyi həsrətlə çəkir ismini.
Bayrağa bələnmiş şəhid cismini,
Tapşırdığım torpaq qana boyanır.

Neçə cənazələr gələcək hələ?
Nə qədər Analar yanacaq belə?
Gözümüzün yaşı dönübdür selə,
Dünya - bu gerçəyi hələ də danır.

İllərdi, bu dərdə tapılmır çarə,
Ağlayır qız-gəlin, geyinir qarə.
Millətim pərişan, qaçqın, avarə,
Qəbirdə narahat ruhlar oyanır.

Ay başı bəlalı Vətən torpağım,
Sinəmdə yaramsan, gözümdə ağım.
Əsarətin olub mənim qınağım,
İnsanam deməyə dilim utanır.

## ANA VƏTƏNİMİN ŞƏHİD ÖVLADI

Ana vətənimin şəhid övladı,
Sənə qismət oldu şəhidlik adı.
Qanının axdığı torpağı görüb,
Dözmədi qərənfil, etdi cihadı,
Yandırdı qəlbləri ana fəryadı!

Sinən sipər oldu azğın düşmənə,
Qeyrətin, hünərin güc verir mənə.
Qanınla sulanan quru torpaqlar.
Döndü xiyabana, döndü çəmənə,
Göydə mələklər də baş əyir sənə!

İllərdir şerimiz nəğməmiz ağı,
Çatlatdı səbrimiz qayanı, dağı.
Şəhidim, gün olsun ruhum dincəlsin,
Hurr olsun məmləkət, məhv olsun yağı,
Azad nəfəs alsın vətən torpağı
Göylərə ucalsın vətən bayrağı!

## YADİGAR SAXLA

Ana, mən gəldim, ağla,
Başına qara bağla...
Üstümdəki bayrağı,
Məndən yadigar saxla...
-*-
Şəhidin var
Alışdı yandı dağlar ,
Gözlərim qaldı ağlar,
Mən balamı soruşdum,
Dedilər şəhidin var...
-*-
Aldım bir qara xəbər
Bu xəbər seldən betər
Bu xəbər qara xəbər
Kim anaya yetirər
-*-
Ay haray
Haray, ay haray, dağlar,
Çiçək açmayan bağlar,
Yurduma şəhid gəldi,
Eli-obam hey qan ağlar...
-*-

Bu xəbər qara xəbər,
Dağdan yel kimi gələr,
Şəhid balası olan,
Analar hər gün ölər.
-*-

Balamı vurdu yağı,
Sinəmə çəkdi dağı
Ay ellər gəlin bizə,
Oğlumdan deyim ağı...

-*-

Bir səhər getdi oğlum,
Davada itdi oğlum
Gülə-gülə getmişdi,
Vay ilə yetdi oğlum...

-*-

Yanar dağ yanar...
Yanar dağ yanar, yanar,
Tüstüsü ərşə qalxar,
Üç min cavanı ölən,
El-oba ağlar qalar...

-*-

Yanar dağ, niyə yandın,
Dayanmadın, hey yandın,
Sənin də şəhidin var,
Elə durmadan yandın?..

-*-

Son qəmin olsun
Məni elim ovutsun,
Desin, son qəmin olsun,
Balamı vuran yağı,
Görüm əlin qurusun...

-*-

Şəhidim var
Ürəyimdə dərdim var,
Qarabağa yağıb qar.
Yağma, dayan, zalım qar,
Qar altda qalanım var...

-*-

Olmadı xəbər-ətər
Nə tez çatdın, Vay xəbər!
Ana, al qara yaylıq,
Oğlundan gəlib xəbər...
-*-
Deməyin, "Dağ da ağlar",
Dağlar anaya ağlar...
Şəhid olan balanın,
Anası hər gün ağlar...
-*-
Dağ başında qar olar
Əriməz, qarlı qalar,
Şəhid verən ananın
Balıncı yaşlı qalar.
-*-
Qara açdı bu səhər,
Yenə gəldi vay xəbər,
Yenə şəhid var deyib
Göz yaşı tökdü ellər...
-*-
Ay ellər gəlin bizə,
Oğlumdan deyim sizə,
Bir igid böyütmüşdüm,
Yamanca gəldi gözə...
-*-
Yorğan döşəyim daşdı,
Balıncım yenə yaşdı,
Başımı parçalayan,
Bu daş nə ağır daşdı...
-*-
Dağ başında qar olar
Əriməz, qarlı qalar,
Oğlu şəhid olanın,
Balıncı yaşlı qalar.
-*-

# ŞUŞA ŞƏHİDLƏRİNƏ BAYATILAR

Şəhid qanı suvaran,
Şuşa bağların yansın...
Əsgər qanı qarışan,
İsa bulağın yansın!
-*-

İsa bulağı daşıb,
Suyu qana qarışıb,
Keçmə Cıdır düzündən,
Daşına qan yapışıb...
-*-
Şuşa yandı, alışdı,
Toz-dumana qarışdı,
Şuşa al-qan olanda,
Bu yanda el ağlaşdı...
-*-
Dağ başı dumanlıdı,
Şuşa yolu qanlıdı,
Qərib, ehtiyatla gəz,
El-obam düşmanlıdı...
-*-
Əlin qurusun, yağı,
Sinəmə çəkdi dağı,
Şəhid olan balamın,
Gəldi qanlı bayrağı...
-*-
Oğlumu vurdu yağı,
Sinəmə çəkdi dağı,
Ay ellər bizə gəlin,
Birlikdə deyək ağı...

-*-

Şuşa mənə ad verdi,
"Şəhid atası" dedi,
Yağı balama atan,
Ox məni rəzil etdi.

-*-

Şuşa, balamı aldın,
Aparıb oda saldın,
Neyləmişdim mən sənə,
Niyə məni yandırdın...

-*-

Şuşa bağın quruyub,
Yolun tamam qan olub,
Bu yaz çətin gül aça,
Şəhid qanın quruyub...

-*-

Şuşa mənə dağ oldu,
Meşəsi saçım yoldu,
Qanlı bayrağım gəldi,
Mənə böyük dərd oldu...

-*-

Ürəyimdə dərdim var,
Qarabağa yağıb qar.
Yağma, dayan, zalım qar,
Qar altda şəhidim var...

-*-

Bu qış Şuşa içdi qan,
İgidləri verdi can,
Açma, Xarı bülbülüm,
Şəhidlər çıxmır yaddan...

-*-
Şuşa yolu bağlıdı,
Dağ başı dumanlıdı,
İsa bulağı donub,
Suyu şəhid qanlıdı...
-*-
Şuşada bu gün vaydı,
Dağa qara qar yağdı,,
Şuşaya gedən yolda,
Nə qədər şəhid vardı...
-*-
Xarı bülbül gəldi dilə,
Şuşaya dedi belə:

- Başın sağ olsun Vətən!
Yurdun var olsun, Vətən!
Belini dik tut, əymə,
Qoy sevinməsin, düşmən...

## TÜRKİYƏ-AZƏRBAYCAN

Türk, uca tut bayrağı,
Fərəhlənsin türk xalqı,
Düşməninə göz dağı,
Yaşa, Türkün bayrağı.

Türkə qənim kəsilən,
Eşit, bil, mən də türkəm!
Qardaşım türk, bacım türk,
Ən yaxın sirrdaşım türk...

Əcdadım türk, babam türk,
Nəslim-nəcabətim türk,
Dədəm Qorqud, Atatürk,
Biri-birindən müdrik...

Babamdır, Ulu Heydər,
Vətəninə nə qədər,
Yaxşılıqları dəyib,
Xalq da qədrini bilib...

Hər üçü xalq yolunda,
Canlarından keçiblər,
Yaxşılıqdan, düzlükdən,
Dünyaya dərs keçiblər...

Türk nə düşmən bağışlar,
Nə xaini unudar.
Nə də pislik edənin,
Qisasın yerdə qoyar...

Qoy bilməyən də bilsin,
Bütün DÜNYA eşitsin!
Nə silahdan, nə oddan
Türk xalqı deyil qorxan!

Türk heç vaxt andı pozmaz,
Türk dostu darda qoymaz,
Daha heç vaxt ayrılmaz,
Türkiyə, Azərbaycan!

.

## VƏTƏN ÇAĞIRIR

Qalxın, götürün tez silahınızı,
Bağrınıza basın sevgi yarınızı.
Varsa sarıyın tez yaralarınızı,
Vətən çağırırsa getməliyik biz.

Mərmiylə doldurun ciblərinizi,
Ana vətən deyin hər kəlmənizi.
Xalqın duaları qorusun bizi,
Torpağa qarışıb itməliyik biz,
Vətən çağırırsa getməliyik biz.

Keçək yorulmadan uca dağları,
Qanına bələyək o pis yağıları,
Göydən dalğalanan bayraqdan sarı,
Torpaqda ot olub bitməliyik biz,
Vətən çağırırsa getməliyik biz.

## ZƏFƏRƏ DOĞRU

Qüvvəmiz yığıldı, bir yumruq olduq,
Xain düşmənlərin üzünə durduq.
Boş söz eşitməkdən artıq yorulduq,
Uğurla gedirik zəfərə doğru.

Sözüm mənalıdır, üzə naxışdır,
Qəlbimə dəymədən məni danışdır.
Düşmənin obasın dağıt, qarışdır,
Uğurla gedirik zəfərə doğru.

Əvvəllər dərdimiz söz savaşıydı,
Öz torpağımızın dağı, daşıydı.
Aldığımız torpağın hər qarışıydı,
Uğurla gedirik zəfərə doğru.

## VƏTƏN MƏNİMDİR

Sözüm mənalıdır, təsiri çoxdur,
Bu eşqin dərmanı, çarəsi yoxdur.
Başqa həvəslərə gözümüz toxdur,
Torpaqdan səs gəlsə mənim səsimdir,
Heç kimə vermərəm, vətən mənimdir.

Gözümün nuru da, işığı da sən,
Mənalı sözlərin yaraşığı sən.
Eşqlə məhəbbətin qarışığı sən,
Dadıma çatmasan son nəfəsimdi,
Heç kimə vermərəm, vətən mənimdir.

Vətən anadırsa, oğulsan ona,
Sənin məhəbbətin yetməsin sona,
Bəzi xainlər də girəcək dona,
Başa düşürəm mən, görürəm indi,
Heç kimə vermərəm, vətən mənimdir.

## ZƏFƏR NƏĞMƏSİ

Bir gözləyirdik bu xoş qələbəni,
Nə olar tez denən, sevindir məni.
Vətənim, mən azad görəcəm səni,
Zirvədən gələcək qələbənin səsi,
Yenə eşidəcəyik zəfər nəğməsi.

Bu sözlər vaxt gələr öz yerin tapar,
İstəsən məni də özünlə apar.
Əl atıb ürəyimi yerindən qopar,
Bəlkə gedər-gəlməz onda nəfəsim,
Yenə eşidəcəyik zəfər nəğməsi.

Yanımda olmadı nə dayım, əmim,
Bilmədim mən gedim, ya geri gəlim.
Nə qədər gücüm var yazar qələmim,
Milyon məna saçır şeirin hərəsi,
Yenə eşidəcəyik zəfər nəğməsi.

## HANISAN

Gəldim görüşünə illərdən sonra,
A doğma Vətənim, kəndim Hanısan.
Elə bil çəkildi varlığım dara,
Sənin qucağında şəndim Hanısan.

Axtardım tapmadım eli-obanı,
Namərdlər yandırıb yurdu-yuvanı.
Qapıda görmədim ata-anamı,
Naləli kamana döndüm Hanısan.

Sarıdaş dərəsi çaşıb yolunu,
Görən qan ağlayar kəndin halını.
Səslədim elimin ağsaqqalını,
Başına döndüyün səndin Hanısan.

Haraya çağırdım qonşularımı,
Bölüşmək istədim intizarımı.
Saxlaya bilmədim göz yaşlarımı,
Ağıyla, laylayla dindim Hanısan.

Qayıda bilmədim ötən çağlara,
Xatirəylə dolu bağça-bağlara.
İstədim sürünəm buz bulaqlara,
Çayın qırağına endim Hanısan.

Dolandım görmədim tap məhləsini,
Göyqumun yolunu, sıx meşəsini.
Yığaydım zirinci, mərövcəsini,
Baharda dumandın, çəndin Hanısan.

Sevda həbsdəymiş ana təbiət,
Cəllad əlindəymiş ana təbiət.
Sandım qəfəsdəymiş ana təbiət,
Dağılıbdı bərəm, bəndim Hanısan.

*Şahnaz Şahin*

## ŞUŞA ƏFSANƏSİ

Artıq Vətən savaşından bir ildən çox bir vaxt keçir. Yaşadığımız bu bir il hər bir Azərbaycan vətəndaşının yaddaşında özünə məxsus izlər qoydu. Azərbaycan əsgərinin göstərdiyi şücaət, ordumuzun qüdrəti, xalqımızın yumruq kimi bir olması.., hər şey yaddaşlarda daim yaşayacaq, heç zaman unudulmayacaqdır. 44 günün içərisində baş verənlərin əsasının əslində illər öncədən qoyulduğu da bəllidir. Dövlətimizin siyasi arenada möhkəmlənməsi, ordumuzun maddi və hərbi potensialının gücləndirilməsi, inkişaf etdirilməsi, yeni, müasir hərbi-texniki avadanlıqlarla təmin olunmuş bir orduya çevrilməsinin arxasında böyük zəhmət dayanır...

Bu müharibə o müharibədən deyildi. İndi döyüşün önündə sıravi əsgərlər deyil, komandir özü gedirdi!.. Döyüşçülər bir-birinə qardaş, generala oğul idilər. Atılan güllə bir əsgərə deyil, bir orduya dəyirdi. Heç kəs özünü düşünmürdü, bir qabdan yemək yeyir, su içirdilər. Soyuqdan, gülllədən qorunmaq üçün bir-birinə sığınır, sipər olurdular. Müharibənin bir üzü həmişə sirli olub həmişə. Döyüş planları, əməliyyatlar bu gün də sona qədər açıqlanmır və yəqin ki, açıqlanmayacaq da...

Amma bir əməliyyat var ki, hələ uzun illər onun haqqında əfsanələr, miflər yaranacaq, eşidənlər heyrətlə dinləyəcək, az qala eşitdiklərinə inanmayacaqlar. Hər dəfə Ordumuzun qüdrəti, Azərbaycan əsgərinin qəhrəmanlığından söz düşəndə gözlərdə sevinc və qürur qığılcımları parlayacaq. Hələ düşmənlərimiz... Onlar üçün ömürlük sinə dağına çevrilən döyüşlər gecə də yuxularından çıxmayacaq. Azərbaycan əsgərinin qorxusundan dik atılacaqlar!

Həmin o sirli əməliyyat, Şuşa əməliyyatı idi. Şuşanın azad olunması planı!.. Hərbi sirr olduğundan detalları açıqlamaq olmaz. Elə xarici reportyorların hər birinin görüb bildiklərini öz ölkəsində çıxan mətbu orqanda yazdıqları bir həqiqətdir desəm bəsdir. Bəlkə həqiqətdən qat-qat azdır, amma bundan o tərəfə bilgi olmayacaq...

Mən də belə gördüm, belə düşündüm Şuşa əfsanəsini, araşdırdım, təsəvvür etdim, inandım...

Fermopil döyüşünü xatırlayıram, e.ə 480-cı ildə olmuş Yunan-İran müharibələri zamanı Füssaliyanı Orta Yunanıstanla birləşdirən dağ keçidində olan vuruşmanı...

Sparta sərkərdəsi Leonid əsas qoşunu Afinanın müdafiəsində saxlamaqla, özü 300 spartalı ilə keçidi qorumuş və qeyri-bərabər döyüşdə bütün döyüşçülərilə birgə həlak olmuşdu. Çox sonradan spartalılar həmin yerdə Fermopil döyüşünün qəhrəmanlarına abidə qoydular...

Demək olar ki, eyni ssenari, ən xırda detallarına qədər hesablanan taktiki plan və Azərbaycan ordusunun qələbəsi ilə bitən Şuşa əfsanəsi...

Sözə sığmayan, danışdıqca da bitməyən film kimi döyüş səhnələri gördü Şuşa dağları. Cəngavər oğulların bələdçisi oldu, büdrəyəndə qolundan tutdu qala divarları. Erməni fəndgirlərinin acığına sinəsindən yol elədi sıldırım qayalıqlar! Yuxarıdan "gəl" deyə səslədi, bura sənin torpağındır, torpaq haram götürməz dedi...

...Şuşa-dağların başında bir çiçək topası, saf havası, sərin suyu, ətirli meşəsi... İsmətli qız misalı Şuşamız yad nəfəsdən soluxmuşdu, gözləri kədərli, ürəyi qübarlı idi. Düşdüyü qəfəsdən azad olacağı günü gözləyirdi. İnanırdı ki, o gün gələcək, bu yurdun qeyrətli oğlanları Qarabağı xilas edəcəklər...

Döyüş planı xüsusi hazırlanmış, dəfələrlə kəşfiyyat aparılmışdı. Düşmənin dörd bir tərəfdən müdafiəsini

möhkəmləndirdiyi qalaya hərbçilərimizin necə, hardan girəcəyi dönə-dönə götür-qoy edilirdi. Hər şey son dərəcə dəqiqliklə hesablanır, baş verə biləcək bütün məsələlər diqqətlə araşdırılırdı... Döyüş planı, düzgün koordunatlar olmasa hamı məhv ola bilərdi...

Həmin günlər dünyanın gözü Qarabağda idi. Bir-birinin ardınca azad olunan şəhər və kəndlərdən sonra növbə Şuşanın idi... Ordumuzun xüsusi təyinatlı hissələri qədim qalaya dağlardan, sıldırım qalayıqlardan qalxaraq düşmənlərin həqiqi mənada ölüm mələyinə çevriləcəkdi...

Xüsusi Təyinatlı qüvvələr dəniz səviyyəsindən 1400-1800 metr yüksəklikdə yerləşən Şuşaya gecə saatlarında, sıldırımlı yollarla qalxdılar. Daşaltı kəndi və Qəribəli kəndi tərəfdən meşə yolu ilə şəhərə daxil oldular. Özləri ilə nə ağır texnika, nə top, nə də digər silahlar götürməmişdilər. Ən iri silahları tapança və bıçaq idi...

Düşmənin bir neçə postunu zərərsizləşdirəndən sonra "Köhnə Qala" və "Türmə"ni ələ keçirmiş, düşmənin hücumlarını dəf edərək mövqelərini möhkəmlətmiş və plasdarmı genişləndirmişdilər. Xankəndi-Şuşa yolunu bağlayan digər qrup da düşmənə əlavə təminat və kömək gəlməsinin qarşısını alırdılar. Noyabrın 4-də gecə şəhərə daxil olan Azərbaycan əsgərləri topsuz, Zirehli texnika və aviasiya köməyi olmadan iki sutka döyüşmüşlər. Yaralıları, şəhid olan yoldaşlarını da çiyninə alıb şəhərə qaldıran xüsusi təyinatlılar bir işarə ilə anlaşır, lazım olan anda düşmənlə əlbəyaxa döyüşlərə girirdilər...

Səsi gəlir qulağıma Şuşanın
Könlü yara, qəlbi qırıq Şuşanın.
Damarında qeyrət qanı axanım,
Yüru Ordum, yürü Qurdum, Şuşaya.

...Şəhidini al çiyninə sən yeri,
Yamaca yat, buludlarla tən yeri.
Addımların qoy titrətsin Göy-Yeri,
Yürü Ordum, yürü Qurdum, Şuşaya...

Fransanın "Le Monde" Qəzetinin Xankəndidə olan reportyoru yazırdı ki, Şuşadan gələn yaralılarda əsasən güllə və bıçaq yaralarıdır. Özü də avtomat və ya karabin yox, tapança güllələrinin yarası...

Bu o deməkdir ki, Şuşa şəhəri üzbəüz, əlbəyaxa döyüşlərdə azad olunub...

Xüsusi təyinatlılarımız bu tiqran, sərkis tör-töküntülərilə şir kimi döyüşürdülər...

Həmin döyüşlərin iştirakçısı olan qazi Alik Məmmədov əlbəyaxa döyüşdə tək özünün "40-a qədər erməni əsgərinə bıçaq salıb çıxardığını" xatırlayır...

Noyabrın 6-da axşamçağı ordumuzun motoatıcı hissələri şəhərə daxil olub... Məğlub olduğunu anlayan düşmən, bir neçə dəfə əks-hücuma keçsə də nəticəsiz qalmışdır...Noyabrın 7-də qədim şəhər düşməndən azad olunmuşdur...

Əsgərlərimiz saatlarla dörd yandan aramsız atılan mərmi, güllə ,mina yağışı altında qalırdılar...

Düşmən baş qaldırmağa, göz açmağa imkan vermir, əlavə qüvvələr toplayır, tanklar, toplar, iriçaplı pulemyotlar, müxtəlifçaplı minaatanlar, PDM-lər işə düşür...

Amma sən-Xüsusi Təyinatlı Qüvvələrin əsgəri, "Bir addım da geri çəkilməməli!" əmrini almısan.. Nəyin bahasına olursa olsun Şuşanı azad etməlisən...

Sığınmağa nə istehkam, nə də səngər var.. Atəş açmağa da nə top, nə tank, nə minaatan yoxdu... Olanın avtomat, tapança, əl qumbaraları, pulemyot və bir də bıcaqdır...

Amma sən, Şuşanı azad etməlisən!..

İndi sənin ən güclü silahın vətən, yurd sevgisi və bir də müharibəyə gələn gündən hərbi formanın sol döş cibində-ürəyinin başında saxladığın Azərbaycan bayrağıdır... Sən, onu bura qədər qorumusan, yenə qoruyacaqsan... Əlinlə bir də yoxlayırsan, barmaqlarının toxunuşuyla onun sirli cazibəsini, səsini hiss edirsən.

Sanki səninlə danışan bu səs on illər öncə diri-diri oda atılan, gözü çıxarılan, əzaları kəsilən, sümükləri sındırılan, işgəncələrlə öldürülən soydaşlarının səsidir... bu sənə güc verir, qisas hissi hər şeyi üstələyir, müdafiə olunmalı anda "Azərbaycan uğrunda!", "Qələbə naminə!" deyib, irəli atılırsan.

Güllələrin tükənir, cəsarətin ki, tükənməyib, bir andaca bıçağı işə salırsan. Budur, bir erməni səni nişan alır. Aman vermirsən, pələng sıçrayışıyla boğazlayıb bıçağı tiyəsinəcən sinəsinə yeridirsən... Dünyanın gözü burda-Şuşa döyüşlərindədir. Sənin qələbəni də, məğlubiyyətini də istəyənlər var.

Amma sən, Şuşanı azad etməlisən...

Gecədir, qaranlıq hər şeyin üstünə qapqara pərdə çəkib, göz gözü görmür. Burda hissiyyatın gözlərdən vacib olduğunu dərk edirsən. İndi ətrafda kim və nə varsa səsindən duyacaqsan... Dörd tərəfə güllə yağdıran düşmənlərin çaşqın vəziyyətdədir, pərən-pərən düşmüş bu murdar çəkməlilər artıq öz əsgərlərini öldürür, çünki hara baxsa orda Azərbaycan əsgərini görür...

Düşmən qoşunla üstünə yeriyir, amma Koroğlu misalı, "leş bir yana, baş bir yana" düşüb qalır köhnə Qala ilə Türmənin qarşısında. Yaralı yoldaşın yerə çökür, tez əlindən tutub qaldırırsan. O ağırdır, sənsə yorğun, qan tərin içindəsən, amma bacarırsan. "Az qalıb, lap az!..". O isə yarasının üstündən basıb qan içində gülümsəyir, səndələyərək qalxır, amma qamətini düz tutur...

Burda hər tərəfdən dəmir iyi gəlir. Yadına düşür ki, bu qandır, qan iyidir, axı qan dəmir tərkiblidir. İydən ürəyin bulanır, başın gicəllənir, gözlərin qaralır... Ölüm dolanır hər tərəfdə, düşünürsən "ölüm nədir ki, onun qarşısında əyilim.."

Düşmənin güllə yağışı tutur səni, zirehli maşınları yeriyir üstünə. Səninsə zirehin uşaqlıqdan ana südü ilə qanına hopan cəsarət və qətiyyətin, çiyin söykədiyin səngər yoldaşındır.

Güllələrə meydan oxuyursan, son gücünü toplayıb irəli atılırsan... Çünki sən Azərbaycan əsgərisən! Sən, Şuşanı azad etməlisən!...

Bura isə Şuşadır, geriyə yol yoxdur...

O gün Fermopil savaşı oldu Şuşada. XTQ döyüşçüləri də 300 spartalı idi...  Bir qarış da geri addım atmadılar, şəhid oldular, qazi oldular, qəhrəman oldular...

Şuşanı azad etdilər...

*ZƏHRA SƏFƏRALIQIZI*

## 50 YAŞIN MÜBARƏK, CAVAN OĞLAN ŞƏHİD EMİN QƏZƏNFƏR OĞLU (19.05.1974-06.01.1994)

Bir qış səhəri idi. Ana bu səhəri dirigözlü açmışdı. Yuxusu qaçmış, ürəyi narahatlıqdan tir-tir əsir, gözlərini sonsuz üfüqlərə dikib dua edirdi. Heç nə istəmirdi. Balasını, san parçasını doğma el-obası ilə birlikdə istəyirdi. Oğlu torpağı üçün düşmən çəpəri olmuşdu, döyüşürdü namərdlərlə. Bu gecə yuxusunu qaçıran ana var-gəl edirdi məskunlaşmış dar bir otaqda… Səhərə yaxın gözünün çimirin alanda Eminini ağappaq, gözoxşayan üfüqlərin ənginliklərində görmüşdü… Ona baxır, sakit səslə - ana - deyib, gülümsəyirdi… Can ana - deyib, gözünü onun səsinə açmışdı. - Allah, xeyrə cala yuxumu. Eminimi sənə əmanət edirəm - söyləyə-söyləyə, var-gəl edirdi. Yurd həsrətli, dərdli, nisgilli ananın ürəyi az qala ağzından çıxacaqdı, döyüntüsünün səsi qulağını batıracaqdı… Bir az keçəndən sonra eşidəcəyi xəbər onu kəsilmiş çinar ağacı kimi yerə yıxacaqdı. Ömrü boyu ağı deyib, nakam oğlunu ağlayacaqdı. Başının saçı ağ, şalı qara olacaqdı. Toylarda oynamayacaq, yasların ağı deyəni olacaqdı, bu, həmişə gülər üz, şirin dil, zarafatından qalmayan çiçək kimi gözəl Çiçək ana… Əsgülüm dağının qoynunda yerləşən füsunkar Zəngilanın igid, qəhrəman oğullarından biri də Emin idi. 1974-cü ilin bir gözəl, güllü-çiçəkli may ayında dünyaya gələn Emin firavan-qayğıkeş böyüdü. Anası Çiçək xanımın dilinin şirin söhbəti, atası Qəzənfərin arxası-dayağı oldu. Yaşadığı "Jildom" məhləsinin camaatının sevimlisi oldu. Zəngilanın çinar ağacları kimi boylu-buxunlu, bulaqları kimi dupduru oldu. 1981-ci ildə 1 saylı Zəngilan

orta məktəbinin birinci sinfini başa vurur. Zəngilan rayonun 144 saylı Texniki Peşə Məktəbində təhsil alır. 1992-ci ilin 1 may tarixində Azərbaycan Milli Ordusunun ilk çağırışlarından olur. Qara bulud gözəl, əsrarəngiz Zəngilanın üstünü alanda Emin Rüstəmov döyüşlərə atılır. Cəsarətlə və igidliklə döyüşlərdə iştirak edir. O, Zəngilan, Qubadlı rayonunun Başarat, Xanlıq, Cəbrayıl rayonunun Şərikan, Əfəndilər kəndləri, Füzuli torpaqları uğrunda qəhrəmanlıqla vuruşur. Gənc əsgər olmağına baxmayaraq Emin öz dəyanəti, qorxmazlığı, davranışı, dözümlülüyü, şücaəti ilə döyüş yoldaşlarının və komandirin böyük hörmətini qazanmışdır. 1993-cü ilin oktyabrında yurdunun, doğma el-obasının işğalı onu sarsıdır. İçin-için ağlayır, sıtqayır. Ağladıqca qəlbində intiqam, qisas hissi güclənir. Bakı şəhərində məskunlaşan ailəsinə: "Mən döyüşə qayıdıram - deyəndə Çiçək ana ağlayır. Oğluna bələd olan Qəzənfər ata ağrısa da susur, başını aşağı salır.

Vətən, el-oba itirən Çiçək ana - getmə, bala, ev-eşik, yurd-yuva, qohum-əqraba itirmişəm, səni də itirmək istəmirəm, getmə - söyləyir. Emin anasının qapqara, gur saçlarından öpüb: -Qorxma ana, mənə heç nə olmaz. Belə bir zamanda mən döyüşməyə bilmərəm. Başımı dik tuta, insanların gözünə baxa bilmərəm - söyləyir, susub, nəmli gözlərini ondan gizlətməyə çalışan atası Qəzənəfəri qucaqlayıb gedir… Emin doğma Zəngilanı düşmənlər tərəfindən işğala məruz qaldıqdan sonra Coranboy rayonunu erməni silahlı qüvvələrinin hücumundan dəfh edilməsində döyüş yoldaşları ilə fəal iştirak edir. 1993-cü ildən Horadiz qəsəbəsi istiqamətində düşmənə qarşı hücum əməliyyatının həyata keçməsində döyüş yoldaşları ilə inamla döyüşmüş, onlarla birlikdə qəhrəmanlıq göstərmişdi. 1994-cü ilin yanvarın 6-da Füzuli rayonunun Horadiz qəsəbəsi uğrunda gedən döyüşlərdə mühüm strateji əhəmiyyətli ərazinin düşməndən

azad edilməsində Rüstəmov Emin Qəzənfər oğlu qəhrəmancasına şəhid olur. Elə bir zirvəyə yüksəlir ki, o uca zirvə hər kəsin bəxtinə yazılmır. Amma hər kəs də öz istəyi, öz ürəyinin səsi ilə bu yola çıxmaq cəsarətində ola da bilməz. Bu yol müqəddəs yoldur, bu yol ölməzlik yoludur, bu yol qürur yoludur. O, şəhidlər xiyabanında dəfn olunur. O ildən 30 il keçib. Şükür Allaha, indi Emin kimi cəsarətli oğullarımızın sayəsində Zəngilanımız azaddır. Çiçək ananın təsəllisi budur. Eminin yoxluğuna dözməyən, qəddi əyilən, dünyadan tez köçən Qəzənfər atanın da ruhu şaddır. Təbiətin gözəl, təravətli, gül-çiçəkli ayında dünyaya göz açıb, 20 yaşında qarlı, şaxtalı, çovğunlu günündə bu dünyanı tərk edib, əbədi dünyanın ən ülvi, ən təmiz məkanında yurd-yuva salan Emin Rüstəmovun may ayının 19-da 50 yaşı tamam olacaq. Ruhu şad, üzü gülümsərdən Emin Şəhidlər Xiyabanında görüşünə gələn anası Çiçək xanımın ağappaq, gur saçlarından öpəcək və qulağına pıçıldayacaq: - Ana, mən ölməmişəm, mən Şəhidəm, mən əbədi sağam…

Ay ana, saçını dərddən ağartdın,
Gəlib-gedənlərdən sən məni sordun.
Qara bəxtim - deyib yandın-alışdın,
Sən yanma, alışma, təsəllin olsun.
Adım tarixlərə yazıldı, ana.
Haqqın dərgahına qovuşdum, ana!

## GÖZƏL SƏSLİ XUDAYARIM

Qoydun bağlı qapıları,
Etdin nakam arzuları,
Çox gözlərə həsrət qondu,
Gözəl səsli Xudayarım.
Tufan oldu, şimşək çaxdı,
Güllə səsi göyə qalxdı,
Yeri - göyü dəlib keçdi,
Gözəl səsli Xudayarım.
Bu torpaqdan igid kimi,
Vüqarlı bir insan kimi,
Xatirələr qoyub getdin,
Gözəl səsli Xudayarım.
Torpaq uğrunda vuruşdun,
Qovmaq üçün düşmənləri,
Şəhid oldun Vətən üçün,
Gözəl səsli Xudayarım.

# MÜNDƏRİCAT

"VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN
İNKİŞAFI" LAYİHƏSİ ............................................3

*Gülayə*

BOYNUMDA ƏBƏDİ HAQQIN VAR, VƏTƏN.....6
VƏTƏNƏ BAĞIŞLADIN .........................................9
ÖMRÜ VƏTƏN OLANLARA ................................10
GƏLİR ...................................................................16
BOYUN BAŞDAN-BAŞA VƏTƏN BOYDADIR ...17
*Şahin Fazil ..........................................................18*
*Yasin Xəlil ...........................................................20*

*Vaqif BƏHMƏNLİ*

VƏTƏN ƏSGƏRİ.....................................................21
ŞAİRİN SÜBH DUASI ............................................23
QARABAĞ ..............................................................24
GÜLSÜM GÜLMEZ ...............................................25
ŞƏHİD ANASI ........................................................ 26

*Almaz Alıqızı*

ŞƏHİDİN ÖZ ATASINA SON SÖZÜ ......................27

*Namiq Aslan*

VƏTƏN BÖLÜNMƏZ..............................................28

*Nuriyə Könül*

ŞƏHİDLƏR SORAĞI ...............................................30
ANA VƏTƏNİMİN ŞƏHİD ÖVLADI......................31

*Gülzar İbrahimova*

YADİGAR SAXLA...................................................32
ŞUŞA ŞƏHİDLƏRİNƏ BAYATILAR .....................35
TÜRKİYƏ-AZƏRBAYCAN ....................................38

*Nadir Həsənoğlu*
VƏTƏN ÇAĞIRIR ....................................................40
ZƏFƏRƏ DOĞRU ....................................................41
VƏTƏN MƏNİMDİR ................................................42
ZƏFƏR NƏĞMƏSİ...................................................43
HANISAN...............................................................44
*Şahnaz Şahin*
ŞUŞA ƏFSANƏSİ....................................................46
*ZƏHRA SƏFƏRALIQIZI*
50 YAŞIN MÜBARƏK, CAVAN OĞLAN .............52
*PÜSTƏ RƏVAN*
GÖZƏL SƏSLİ XUDAYARIM ................................55

***Nəşriyyat direktoru:*** **Sənan Aslansoy**

***Texniki redaktor:*** S.Əsgərli
***Operator və dizayn:*** Könül Uğur

Kitab "Digital Printing House" MMC-nin
sifarişi əsasında hazır depozitivlərdən istifadə edilərək
"Bayramoglu"nəşriyyatının mətbəsində çap edilmişdir

Ünvan: Bakı, Mətbuat prospekti,
529-cu məhəllə
Tel: (050) 678-63-68

Yığılmağa verilib: 10.05.2024
Çapa imzalanıb: 05.06.2024
Şərti çap vərəqi 4.
Fiziki çap vərəqi 16
300 nüsxə